# Azərbaycan-Çin əlaqələrinin dərinləşməsi strateji məqsədlərə xidmət edir



*Strateji tərəfdaşlıq mədəniyyətlərarası əməkdaşlığın inkişafı, təhsil sahəsində birgə proqramların həyata keçirilməsi, insanlara daha yaxın əlaqələrin yaradılması üçün böyük imkanlar təqdim edir. Azərbaycan və Çin arasında qurulan bu münasibətlər regionların və beynəlxalq aləmin inkişafına da müsbət təsir göstərir. İki ölkə arasında yeni bir dövr başlanıb, əlaqələr daha da dərinləşir və uzunmüddətli əməkdaşlıq üçün əhəmiyyətli bir zəmin yaranır. Azərbaycan Çin şirkətləri ilə müxtəlif sahələrdə əməkdaşlığını genişləndirir və bu xüsusilə "yaşıl enerji" və ekoloji layihələrdə mühüm əhəmiyyət kəsb edir. Hazırda Çin şirkətləri ilə fəal əməkdaşlıq edən ölkəmiz həm iqtisadi, həm də ekoloji cəhətdən böyük fayda əldə etməyi hədəfləyir.*

Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə əlaqələrin inkişafı üçün əhəmiyyətli bir mərhələni ehtiva edir. Bu sənədin imzalanması həm iqtisadi, həm də siyasi sahələrdə güclü əməkdaşlığın təməlini qoyur və beynəlxalq aləmdə iki ölkənin mövqeyini daha da möhkəmləndirir. Bəyannamə ticarət və investisiya əlaqələrinin genişlənməsi, xüsusilə infrastruktur layihələri, enerji, texnologiya və müasir sənaye sahələrində birgə fəaliyyətin artırılması ilə bağlı mühüm addımların atılmasına zəmin yaradır. Azərbaycan Çin ilə ticarət mübadiləsini artırmağı və bu istiqamətdəki əlaqələri daha da möhkəmləndirməyi hədəfləyir. Çin də öz növbəsində ölkəmizlə əlaqələrin inkişafında maraqlıdır. Bu tərəfdaşlıq, həmçinin siyasi sahədə də əhəmiyyətli təsirlərə malikdir. Azərbaycan Asiya nəhəngi ilə beynəlxalq məsələlərdə qarşılıqlı dəstək və əməkdaşlıq prinsipini qəbul edərək birgə təhlükəsizlik və beynəlxalq sabitlik məsələlərində daha fəal iştirak etmək barədə razılaşıb. Hər iki ölkə öz suverenliyini və ərazi bütövlüyünü qorumağa və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmağa üstünlük verir.

**(davamı 6-cı səhifədə)**

# Gürcüstanla əlaqələr strateji əhəmiyyətə malikdir



*Azərbaycanın xarici siyasət strategiyasında prioritet istiqamətlərdən biri qonşu dövlətlərlə mehriban münasibət və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasıdır. Bu xüsusda, Azərbaycan-Gürcüstan münasibətləri xüsusi önəm daşıyır. Tarixi, coğrafi, mədəni və iqtisadi baxımdan bir-birinə yaxın olan bu iki dövlət arasında münasibətlər artıq uzun illərdir ki, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və regional sabitliyin, təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Azərbaycan və Gürcüstan arasındakı münasibətlər müstəqillik illərində, xüsusən də 1990-cı illərin əvvəllərindən etibarən sürətlə inkişaf etməyə başlamışdır. Hər iki ölkə SSRİ-nin dağılmasından sonra müstəqil dövlət kimi beynəlxalq arenada öz yerini tutmaq üçün ciddi səy göstərdi və bu prosesdə bir-birinin yanında dayandı. 1992-ci ildə diplomatik münasibətlərin qurulması ilə rəsmi Bakı və Tbilisi arasında əlaqələr yeni mərhələyə qədəm qoydu. Azərbaycan və Gürcüstan bir çox regional və beynəlxalq təşkilatlarda - BMT, ATƏT, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), Avropa Şurası və digər təsisatlarda birgə fəaliyyət göstərir.*

İki ölkə arasında siyasi əlaqələr qarşılıqlı etimada və suverenlik prinsiplərinə əsaslanır. Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəkləyib və Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyinə beynəlxalq platformalarda açıq şəkildə dəstək verib. Eyni zamanda Azərbaycan da Gürcüstanın ərazi bütövlüyünü tanıyır və separatizmə qarşı mübarizədə Tbilisinin yanında olduğunu nümayiş etdirir. Dövlət başçıları səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər bu siyasi əməkdaşlığın yüksək səviyyədə olduğunu bir daha təsdiqləyir. Prezident İlham Əliyev və Gürcüstanın rəhbərləri arasında formalaşmış dostluq münasibətləri ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayır. Onu da qeyd etmək lazımdır ki, Gürcüstanın yeni Baş naziri İrakli Kobaxidze vəzifəyə təyin olunduqdan sonra ilk xarici səfərini məhz Azərbaycana etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevlə Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında ötən həftə Antalyada baş tutan görüş çərçivəsində iki ölkə arasında tarixi dostluq və strateji tərəfdaşlıq bir daha təsdiqləndi. İ.Kobaxidze ADA Universitetində cənab İlham Əliyevin fikirlərinin Gürcüstanda böyük maraq doğurduğunu bildirdi. Bu siyasi dinamikanın davamı olaraq Gürcüstan prezidenti Mixeil Kavelaşvilinin bu gün ölkəmizə ilk rəsmi səfərə gəlməsi iki ölkə arasında münasibətlərin daha da dərinləşəcəyindən xəbər verir.

Azərbaycan-Gürcüstan münasibətlərinin ən mühüm dayaqlarından biri iqtisadi və enerji əməkdaşlığıdır. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri, Bakı-Tbilisi-Ərzurum (BTE) qaz kəməri, Cənub Qaz Dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri geosiyasi baxımdan mühüm əməkdaşlıq nümunələridir. Bu layihələr həm regionun enerji təhlükəsizliyinə, həm də Avropa ilə Asiya arasında logistika təchizatında mühüm töhfə verir. Bununla yanaşı, Gürcüstan və Azərbaycan digər ölkələrlə zamanın tələbinə uyğun, çox böyük və genişmiqyaslı layihənin icrasına başlayıb. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" - bu konsepsiya Azərbaycanın təşəbbüsü ilə formalaşan və qlobal enerji keçidinə töhfə verməyə yönəlmiş mühüm regional və strateji layihədir. O, Xəzər dənizi hövzəsində istehsal olunan "yaşıl enerji"nin Qara dənizin dibi ilə Avropa bazarlarına daşınmasını nəzərdə tutur.

Qlobal logistika və ticarət zəncirlərində baş verən dəyişikliklər fonunda Orta Dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) XXI əsrin əsas nəqliyyat layihələrindən biri kimi önə çıxır. Bu dəhliz Çin və Mərkəzi Asiya ölkələrindən yüklərin Xəzər dənizi vasitəsilə Azərbaycana, oradan Gürcüstan üzərindən Qara dənizə və Avropaya daşınmasını təmin edir. Bu baxımdan, Azərbaycan və Gürcüstan bu nəqliyyat və ticarət marşrutunun əsas geostrateji həlqələrindən biri kimi çıxış edir. Orta Dəhliz, xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra Qərb ölkələri və Çin arasında alternativ ticarət yollarına olan ehtiyacın artması nəticəsində daha da aktuallaşıb. Bu kontekstdə, Azərbaycan və Gürcüstan dəhlizin ən sabit, təhlükəsiz və effektiv keçid zonaları kimi mühüm rol oynayır. Xəzər dənizində inkişaf etmiş dəniz donanması və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı yüklərin qitələrarası hərəkətini təmin edir. Həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu Orta Dəhlizin əsas infrastruktur sütunlarından biridir. Bu dəhlizdə Gürcüstan öz limanları ilə mühüm rol oynayır. Batumi və Poti limanları Orta Dəhlizin Qara dəniz qovşağı kimi fəaliyyət göstərir. Gürcüstan üzərindən keçən avtomobil və dəmir yolları Azərbaycanla tam uyğunlaşdırılmış şəkildə inkişaf etdirilib.

Orta Dəhliz kimi çoxmillətli əməkdaşlıq tələb edən layihələrdə iştirak üçün ölkələrin regional və beynəlxalq hüquqa hörmətlə yanaşması, sülh və qarşılıqlı etimad mühiti yaratması vacibdir. Lakin Ermənistanın uzun illər ərzində Azərbaycana qarşı həyata keçirdiyi işğal siyasəti onu bu mühüm iqtisadi və logistik təşəbbüslərdən kənarda qoyub. Regionda etibarsız tərəfdaş olan Ermənistan həm Azərbaycanın, həm də Gürcüstanın logistik strateji planlarında yer ala bilməyib. Zəngəzur dəhlizi layihəsinə Ermənistanın ardıcıl şəkildə maneçilik göstərməsi onun regional layihələrə inteqrasiyasına zərbə vurur. Ermənistan bu günə qədər nəinki Orta Dəhlizdə iştirak edə bilməmiş, eyni zamanda özünü iqtisadi təcrid vəziyyətinə salmışdır.

Son dövrlərdə Qərb siyasi dairələri Gürcüstana qarşı qərəzli münasibətlə regionda formalaşmış mövcud əməkdaşlıq mühitinə və sabitliyə ciddi zərbə vurmağa çalışırlar. Gürcüstanda daxili siyasi proseslərə müdaxilə cəhdləri, demokratik iradəyə hörmət prinsipinin pozulması və birtərəfli mövqelər Qərbin obyektivlikdən uzaq siyasət yürütdüyünü bir daha ortaya qoyur. Belə bir şəraitdə Azərbaycanın Gürcüstana göstərdiyi davamlı siyasi dəstək strateji tərəfdaşlıq münasibətlərinin nə qədər güclü və qarşılıqlı etimada əsaslandığını göstərir. Rəsmi Bakı Gürcüstanın daxili sabitliyinə və regional əməkdaşlıqdakı roluna böyük önəm verir. Azərbaycan və Gürcüstan təkcə enerji və nəqliyyat sahəsində deyil, həm də Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunmasında eyni mövqedən çıxış edən iki yaxın ölkədir.

Digər tərəfdən, Qərb təsisatlarının işğalçı Ermənistanı müdafiə edən və onu açıq şəkildə dəstəkləyən bəyanatları ikili standartların bariz nümunəsidir. Avropa Komissiyasının və digər Qərb dairələrinin Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan sərhədlərinin açılması barədə irəli sürdüyü iddialar, əslində, Ermənistanın irimiqyaslı regional layihələrə inteqrasiyasını təmin etməyə yönəlmiş siyasi manipulyasiyalardır. Lakin burada əsas və dəyişməz bir reallıq var. Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi imzalanmadan bu ölkənin hansısa regional layihəyə qoşulması mümkün deyil. Rəsmi İrəvan bu reallığı dərk etməli və Azərbaycanın haqlı tələblərini qəbul etməlidir. Bu tələblərin əsasını isə Ermənistan konstitusiyasında əksini tapan Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması təşkil edir. Ermənistanın indiki konstitusiyası Azərbaycanın ərazi bütövlüyünü tanımır və bu, beynəlxalq hüquqa zidd olmaqla yanaşı, sülh prosesinə də ciddi manee yaradır. Rəsmi Bakı dəfələrlə vurğulayıb ki, yalnız bu konstitusion dəyişikliklər həyata keçirildikdən və İrəvan Azərbaycanın suverenliyini tam şəkildə qəbul etdikdən sonra Ermənistanla sülh müqaviləsi imzalanması və bundan irəli gələn iqtisadi əməkdaşlıq, nəqliyyat əlaqələri və layihələrə inteqrasiya mümkün olacaq. Hazırda Azərbaycan və Gürcüstan regionda real inkişaf və sabitlik nümunəsi yaradan, qlobal və regional layihələrdə fəal iştirak edən, enerji və logistika mərkəzinə çevrilmiş ölkələrdir. Bu uğurun əsas səbəbi isə sülhə, əməkdaşlığa və beynəlxalq hüquqa sadiq qalmaqdır. Ermənistan isə yalnız destruktiv ritorikadan imtina edib konkret hüquqi və siyasi addımlar atdığı halda bu cərgəyə qoşula bilər.

**Musa BAĞIRLI,**
**"Respublika".**